Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 70
(4587) CÜMƏ AXŞAMI, 5 APREL 2007-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan.news.az

Qiyməti 20 qəpik

## "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda beynəlxalq konfrans başa çatmışdır



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda beynəlxalq konfrans aprelin 4-də "Gülüstan" sarayında işini davam etdirmişdir.

Konfransın ikinci iş günü məruzələr dinlənilmiş, qətnamə layihəsi və Azərbaycan Prezidenti İlham Əliyevə, habelə beynəlxalq təşkilatlara müraciət qəbul olunmuşdur. Sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi və dini abidələrin qorunmasının zəruriliyi vurğulanmışdır.

Dövlət Komitəsinin sədri Hidayət Orucov konfransın işinə yekun vuraraq, din azadlığın, tolerantlığın, ölkəmizdə bütün dini konfessiyaların dinc yanaşı yaşamalarının təmin olunmasında ümummilli lider Heydər Əliyevin böyük xidmətlərini bir daha xatırlatmışdır. O demişdir ki, konfransın materialları çap olunaraq, iştirakçılara paylanacaqdır.

Bununla konfrans işini başa çatdırmışdır.

Sonra jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

***AzərTAc***